Ədəbiyyat qəzeti

**F.Köçərli - 150**

# Elmi sessiya

Bu günlərdə AMEA Folklor İnstitutu Firidun bəy Köçərlinin 150 illik yubileyi ilə bağlı elmi sessiya keçirdi. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda keçirilən elmi sessiyada Folkor İnstitutunun əməkdaşları ilə bərabər Azərbaycan Turizm İnstitutunun rektoru prof. Cəfər Cəfərov, Bakı Dövlət Universiteti Filologiya fükültəsinin dekanı, dos. Məhərrəm Vəliyev, prof. Vaqif Sultanlı və dos. Məhəmməd Məmmədov da iştirak edirdi.

Elmi sessiyanı giriş sözü ilə açan Folklor İnstitutunun direktoru, fil.ü.e.d. Muxtar Kazımoğlu Firidun bəy Köçərlinin 150 illik yubileyi ilə bağlı Respublika Prezidentinin məlum sərəncamını xatırladaraq bu sessiyanın keçirilməsinin elmi ictimaiyyət üçün əhəmiyyətindən danışdı. Qeyd etdi ki, Firidun bəy Köçərli Azərbaycan humanitar fikrinin inkişafında, onun ideya və istiqamətlərinin müəyyənləşməsində danılmaz rolu olan böyük tənqidçi, ədəbiyyatşünas alim və pedaqoqdur. Natiq Köçərli yaradıcılığının Azərbaycan mədəniyyətşünaslığı üçün əhəmiyyətindən söz açaraq bildirdi ki, o, ilk Azərbaycan ədəbiyyatı tarixinin yazılmasında, uşaq ədəbiyyatı təməlinin qoyulmasında, ədəbi-tənqidi fikrin formalaşmasında mühüm addımlar atmışdır. O, dövrünün ədəbiyyatı ilə sistemli şəkildə məşğul olmuş və ədəbi proseslərə yön verən şəxsiyyətlərdən biri olmuşdur. Həmçinin onun fəaliyyətində folklorla bağlı olan, hətta bugünün özündə belə aktuallığını itirməyən faktlar vardır ki, bu sessiyada onlar üzərində xüsusi dayanmaq istərdik.

Sonra professor Kamran Əliyevin "F.Köçərlinin Azərbaycan ədəbiyyatı tarixində mövqeyi" adlı məruzəsi dinlənildi. Firidun bəy Köçərli haqqında dolğun və sistemli təsəvvür yaratmaq üçün alim onun bioqrafiyasını və yaradıcılığını konkret təhlilə cəlb etdi. Qeyd etdi ki, Firidun bəy Köçərlinin ən böyük ustalığı ondan ibarət idi ki, o tənqidçidən sadə və aydın yazmağı tələb edirdi. Deyirdi ki, tənqidçi ilk növbədə əsərin məzmununu qısa və tam şəkildə oxucuya çatdırmağı bacarmalıdır. Bunun əyani nümunəsini o, C.Məmmədquluzadənin "Usta Zeynal" hekayəsinin təhlilində təqdim etmişdi.

Fil.ü.f.d. İslam Sadıq "F.Köçərlinin topladığı tapmacaların tipoloji xüsusiyyətləri" mövzusunda çıxış edərək Firidun bəy Köçərlinin folklorşünaslıq fəaliyyətinə və tapmacaların poetikasına nəzər yetirdi. O, məruzəsində Azərbaycanın müxtəlif bölgələrindən toplanılmış tapmacalarla Firidun bəy Köçərlinin "Balalara hədiyyə" kitabındakı tapmacaları tipoloji baxımdan müqayisə etdi.

İnstitutun böyük elmi işçisi Fidan Qasımova "F.Köçərlinin folkorşünaslıq görüşləri" adlı məruzəsində tənqidçi alimin folklorşünaslıq fəaliyyətinin müasir elm üçün əhəmiyyətindən bəhs edərək onun toplama fəaliyyətinin özündən sonrakı nəsillərə təsirindən danışdı. Qeyd etdi ki, Firidun bəy Köçərli bütün ömrü boyu ana dili və folklor məsələsinə böyük önəm vermişdir.

İnstitutun elmi işçisi Gülnar Osmanova "Balalara hədiyyə" kitabındakı epik folklor janrlarının çağdaş Azərbaycan nəsrinə təsiri" məruzəsində isə Firidun bəy Köçərlinin topladığı nağıllarla müasir Azərbaycan nəsri arasında maraqlı müqayisələr apardı. O qeyd etdi ki, Firidun bəy Köçərlinin "Balalara hədiyyə" kitabındakı epik folklor nümunələrini gözdən keçirdikdə aydın olur ki, bu nümunələr uşaqların tərbiyəsinə müsbət təsir edə biləcək mətnlərdən təşkil olunmuşdur.

"Balalara hədiyyə" kitabındakı "Göyçək Fatma" nağılı və onun variantları" məruzəsi ilə çıxış edən institutun aspirantı Aytac Abbasova "Göyçək Fatma" nağılını Azərbaycanın müxtəlif bölgələrindən toplanılmış variantlarla müqayisə edərək oxşar və fərqli cəhətləri sessiya iştirakçılarının diqqətinə çatdırdı.

Sonda elmi sessiyada təqdim olunan məruzələri dəyərləndirən Muxtar Kazımoğlu bu sessiyanın təşkilində yaxından iştirak edən "Folklor və yazılı ədəbiyyat" şöbəsinə və şəxsən həmin şöbənin müdiri Kamran Əliyevə təşəkkür elan etdi və bildirdi ki, bu tədbir həm də gənc tədqiqatçılara meydan verilməsi ilə yadda qaldı.

Tədbirdə BDU-nun Filologiya fakültəsi ilə AMEA Folklor İnstitutu arasında əməkdaşlıqla bağlı şifahi razılaşma da əldə olundu və institutun direktoru M.Kazımoğlu bildirdi ki, AMEA rəhbərliyi də institutlararası və elmi qurumlarla əlaqə və əməkdaşlıq məsələsində çox maraqlıdır. Odur ki, biz bu istəyin davamı olaraq belə əməkdaşlıqlar üçün müəyyən işlər görmək fikrindəyik.

**H.Quliyev**
**S.Qarayev**